**UOT 327**

**NADİR MİRZƏLİZADƏ**

*Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi,*
*Politologiya və sosiologiya kafedrasının "Siyasi nəzəriyyə" ixtisası üzrə doktorantı*
ORCID ID: 0009-0008-5622-2151
**nadirmirzalizade@gmail.com**

# GÜCÜN TRANSFORMASİYASI: ABŞ, ÇİN VƏ RUSİYA KONTEKSTİNDƏ SİYASİ HAKİMİYYƏTİN MÜQAYİSƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/139-144

*Bu məqalə müasir dövrdə güc və siyasi hakimiyyət anlayışının transformasiyasını analiz etməklə yanaşı, qlobal sistemin üç əsas aktoru Amerika Birləşmiş Ştatları, Çin Xalq Respublikası və Rusiyanın idarəetmə modellərini müqayisəli şəkildə təhlil edilir. Tədqiqatın əsas məqsədi 21-ci əsrdə gücün multidimensial xarakterini göstərmək, sərt və yumşaq güc elementlərinin inteqrasiyası fonunda dövlətlərin strategiyalarının necə dəyişdiyini müəyyənləşdirməkdir. Bu kontekstdə üç böyük gücün tətbiq etdiyi modellərin nəzəri və praktiki xüsusiyyətlərini ortaya çıxarmaqdır. Metodoloji çərçivə müqayisəli təhlil, sistemli yanaşma, normativ-institusional, analiz və sintez əsasında qurulmuşdur. Məqalədə gücün klassik konsepsiyalarının məhdudluğu vurğulanır. İnformasiya cəmiyyətinin yüksəlişi, texnoloji inkişaf, qloballaşma və qeyri-dövlət aktorlarının artan rolu fonunda hakimiyyətin yeni formaları izah edilir.*

*Tədqiqatın gedişatında göstərilir ki, müasir siyasi sistemlər adaptiv eləcədə çoxölçülü güc modellərinə əsaslanır. Birləşmiş Ştatlar liberal-demokratik institutları və beynəlxalq təşkilatlarda dominant mövqeyi ilə beynəlxalq normativ effekt yaradır. Çin Xalq Respublikası mərkəzləşdirilmiş idarəetmə, "dövlət kapitalizmi" adlanan sistem üzərində qurulan iqtisadi-ekspansionist strategiya ilə yüksəlişini davam etdirir. Rusiya isə hərbi deterensiya, enerji diplomatiyası (qaz, neft) vasitəsilə regional və qlobal təsirini qorumağa çalışır. Müqayisə göstərir ki, bu üç model müasir güc arxitekturasının müxtəlif formalarını təmsil edir. Buda onların hər biri siyasi sistemlərin transformasiyasını anlamaq üçün mühüm analitik baza yaradır.*

*Tədqiqatda nəticə olaraq bildirilir ki, hakimiyyətin yeni modelləri gələcək tədqiqatlar üçün geniş nəzəri perspektivlər açır eləcədə qlobal siyasətin formalaşmasında həlledici rol oynayır.*

*Açar sözlər:* Geosiyasi rəqabət, qlobal nizam, multidimensial güc, ABŞ-Çin-Rusiya müqayisəsi, qlobal siyasət, güc, hakimiyyət.

***Giriş***. Müasir dövlətlərin fəaliyyətini müəyyən edən əsas amillər arasında siyasi hakimiyyət və onun strukturları ilk pillədə durur. Hakimiyyət təkcə formal institutlar vasitəsilə yox, həmçinin sosial, iqtisadi və mədəni amillər üzərindən də formalaşır. Bu mənada, siyasi gücün mənbələri və təsir mexanizmləri müxtəlif dövlətlərin tarixi, siyasi, sosial məzmunundan asılı olaraq fərqlənir. Demokratik və qeyri-demokratik idarəetmə sistemləri arasında bu fərqliliklər, siyasi hakimiyyətin necə təşkil olunduğunu və cəmiyyətdə necə qəbul edildiyini göstərir [3, s.63-104].

Yeni politoloji nəzəriyyələr gücü yalnız mərkəzi institutların monopoliyası kimi nəzərdən keçirmir. Siyasi nəzəriyyələr onu qeyri-formal şəbəkələr, media, iqtisadi resurslar və ideoloji təsir vasitəsilə ortaya çıxan kompleks sistem kimi izah edir. Belə yanaşma dövlət siyasətində gücün müxtəlif mənbələrinin qarşılıqlı təsirini anlamağa imkan verir. Birləşmiş Ştatlar, Çin və Rusiya bu çoxölçülülüyün fərqli formalarını nümayiş etdirir. Birincisi, Birləşmiş Ştatlar demokratik model çərçivəsində gücü balanslaşdırılmış institusional mexanizmlərlə həyata keçirir. Çin isə gücünü mərkəzləşdirilmiş siyasi və institusional strukturlar üzərində formalaşdırır. Rusiya hibrid model təqdim edir. Burada formal institutlarla qeyri-formal təsirlər bir-birinə qarışaraq hakimiyyətin unikal dinamikasını yaradır. Belə fərqliliklərin hərtərəfli analizi siyasi nəzəriyyələrin praktik tətbiqlərini anlamağa eləcədə gücün müxtəlif formalarda necə işlədiyini və təsir göstərdiyini nümayiş etdirir. Bu yanaşma dövlətlərin müasir siyasi

və sosial reallıqlarını dəqiq dəyərləndirməyə şərait yaradır. Siyasi hakimiyyətin struktur və funksiyalarının təhlili nəzəri və analitik səviyyədə dövlət siyasətini, qlobal idarəetmə modellərini dərinləşdirmək üçün vacibdir.

***Müasir dövrdə güc və hakimiyyətin yeni modelləri***. Siyasi hakimiyyət və güc anlayışı 21-ci əsrdə köklü surətdə dəyişməkdədir. Ənənəvi siyasi nəzəriyyələrdə güc adətən hərbi və iqtisadi üstünlüklərlə ölçülürdü. Yəni dövlətin beynəlxalq arenadakı mövqeyi isə əsasən sərt güc vasitəsilə qiymətləndirilirdi. Lakin 21-ci əsr, texnoloji inqilab, qloballaşma, informasiya cəmiyyətinin yüksəlişi ilə gücün yalnız sərt (hard power) vasitələrlə ifadə olunmasının kifayət etmədiyini ortaya qoymuşdur. Dövrümüzün siyasi sistemləri çoxölçülü və kompleks xarakter daşıyır. Bu səbəbdən hakimiyyət modelləri sərt güc "hard power" ilə yumşaq güc "soft power" elementlərini birləşdirən multidimensial yanaşmalar əsasında təhlil edilməlidir [8, s.1-32].

Gücün transformasiyası beynəlxalq eləcədə milli səviyyədə müşahidə olunur. Qloballaşma prosesinin sürətlənməsi iqtisadi, texnoloji və mədəni sahələrdə dövlətlərin qarşılıqlı asılılığını artırmışdır. Bu da öz növbəsində gücün yalnız hərbi üstünlüklərlə deyil, iqtisadi, texnoloji, diplomatiya, mədəni təsir vasitəsilə də formalaşmasını vacib qılır [6, s.101]. 21-ci əsr dövlətləri yalnız sərt güc strategiyalarına güvənə bilməzlər çünki bu gün strateji planlamada yumşaq güc vasitələrinin rolu daha çox ön plana çıxır. Buraya bir sıra amillər, məsələn, beynəlxalq imic, mədəni diplomatiya, elmi-texnoloji liderlik və qlobal standartların formalaşdırılması daxildir [8, s.83-108]. Müasir hakimiyyət modelləri çevik həmçinin adaptiv xarakter daşımalıdır. Beynəlxalq və regional hadisələr, iqtisadi böhranlar, texnoloji inqilablar və sosial dəyişikliklər dövlətlərin güc strategiyalarını daim yeniləməsini ön plana çıxarır. Dövlətlərin güc tətbiqi təkcə daxili siyasi stabilliyi qorumaq üçün tətbiq edilmir. O, beynəlxalq mühitdə rəqabət qabiliyyətini saxlamaq və nüfuzunu artırmaq məqsədilə də həyata keçirilir. Bu üzdən, hakimiyyət modelləri daha çoxölçülü, kompleks, proqnozlaşdırılan strategiyalar əsasında formalaşır [6, s.101-142].

Bugün güc və hakimiyyətin analizində təkcə dövlətlər yox, qeyri-dövlət aktorları da mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, transmilli şirkətlər, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları və qlobal informasiya şəbəkələri dövlətlərin gücünü məhdudlaşdıra, eyni zamanda gücləndirə bilər [4, s.45-88]. Məsələn, dövlətlərin strategiyalarını formalaşdıran kritik elementlərdən bir neçəsi kimi beynəlxalq ticarət şəbəkələri, maliyyə bazarları və texnologiya sektorundakı liderlik amillərinin adını çəkə bilərik. Bu vəziyyət dövlətlərin yalnız sərt gücə əsaslanan strategiyaları ilə kifayətlənə bilməyəcəyini göstərir yəni burada adaptiv, inteqrativ və çevik güc modelləri daha effektiv hesab edilir. Bundan əlavə, güc transformasiyası özünü sosial və mədəni sahələrdə də geniş şəkildə göstərir. Misal üçün, İT texnologiyalarının inkişafı ilə dövlətlər üçün nüfuz yaratmaq və beynəlxalq imicini qorumaq daha çox önəm kəsb edir. Sosial media, beynəlxalq mediada iştirak, mədəni diplomatiya vasitəsilə kimi amillərlə dövlətlər həm daxili əhalini idarə edir, həm də xarici auditoriyada öz təsirini artırır. Bu kimi baxışlar gücün yalnız hərbi və iqtisadi ölçülərlə məhdudlaşmadığını, orada ideoloji və mədəni komponentlərin də önəmli olduğunu göstərir.

Hazırkı dünyada gücün transformasiyası çoxmərkəzli dünyaya uyğun strategiyalar tələb edir. Dövlətlər beynəlxalq siyasi sistemdə yalnız təkbaşına aktor kimi deyil, eləcədə müxtəlif beynəlxalq şəbəkələrdə iştirak edən əlaqəli subyektlər kimi fəaliyyət göstərirlər. Bu da öz növbəsində dövlət hakimiyyətinin strateji planlaşdırma, diplomatik əlaqələr, qlobal layihələr vasitəsilə gücünü nümayiş etdirməsi üçün yeni imkanlar yaradır. Müasir dövrdə siyasi hakimiyyət və güc anlayışı klassik sərt güc modelindən uzaqlaşaraq çoxölçülü, transformativ və adaptiv xarakter almışdır. Dövlətlərin güc strategiyaları yalnız daxili siyasi idarəetməni təmin etməklə kifayətlənmir. O, həm də qlobal arenada rəqabət qabiliyyətini qorumaq və beynəlxalq təsirini artırmaq məqsədini güdür. Bu mənada hakimiyyət modellərinin transformasiyası həm nəzəri, eləcədə praktik tədqiqat sahəsi kimi aktualdır [4, s.221-260].

***ABŞ, Çin və Rusiya: Strateji güc və idarəetmə modelləri***. Müasir beynəlxalq sistem üç nəhəng güc mərkəzinin (Amerika Birləşmiş Ştatları, Çin və Rusiya) siyasi, iqtisadi və ideoloji xarakterli idarəetmə modelləri əsasında qurulan çoxtərəfli rəqabət mühitinə dönmüşdür [7, s.29-67]. Bu dövlətlərin hər biri beynəlxalq nizamın strukturunda özünəməxsus təsir mexanizmləri formalaşdırmışdır. Onlar regional və qlobal təhlükəsizlik arxitekturasında fərqli strategiyalarla güclü mövqe tutmuşdur. Müasir

siyasi hakimiyyət nəzəriyyələri göstərir ki, bu üç gücün siyasi sistemləri yalnız daxili legitimlik mexanizmləri ilə deyil, həmçinin beynəlxalq aləmdə güc proyeksiyası və normativ nüfuzla birləşən kompleks strukturlara əsaslanır [7, s.337-385].

Birincisi, Birləşmiş Ştatlar siyasi hakimiyyətin legitimliyini liberal-demokratik dəyərlər üzərində qurmuşdur. Bu gün ABŞ idarəetmənin institusional sabitliyini və gücün səmərəli paylanmasını təmin edən konstitusional model tətbiq edir. ABŞ federal sisteminin çoxpilləli hakimiyyət bölgüsü icra, qanunverici və məhkəmə qolları arasında balans yaradır [5, s.21-56]. Bu ölkənin uzunmüddətli siyasi sabitliyinə töhfə verir. Birləşmiş Ştatlar sərt gücünü yüksək texnoloji hərbi qabiliyyətdən alırsa yumşaq gücünü də dünya miqyasında mədəni, iqtisadi, ideoloji təsir alətlərindən alır. Vaşinqtonun beynəlxalq sistemdəki hegemon mövqeyi NATO, Dünya Bankı, BVF və digər təşkilatlar vasitəsilə ölkənin normativ nüfuz yaratmaq imkanlarını genişləndirir [5, s.135-172]. Birləşmiş Ştatlar xarici siyasətdə liberal beynəlxalqçılıq prinsiplərini üstün tutur. O, öz modelini universal dəyərlər kimi təqdim etməklə qlobal idarəetmədə liderlik iddiasını qoruyur.

Çinə gəldikdə isə deyə bilərik ki, ölkənin idarəetmə modeli mərkəzləşdirilmiş siyasi hakimiyyətlə dövlət yönümlü iqtisadi modernizasiya strategiyasının sintezinə əsaslanır. Çin Kommunist Partiyası siyasi sistemin ən önəmli qərarverici orqanı kimi çıxış edir. Bu partiya hakimiyyətin davamlılığını ideoloji nəzarət, institusional intizam və genişlənmiş sosial idarəetmə mexanizmləri ilə təmin edir. Pekinin "dövlət kapitalizmi" adlandırılan bu modeli iqtisadiyyatın strateji sektorlarını birbaşa siyasi rəhbərliyin nəzarəti altında saxlayır. "Dövlət kapitalizmi" uzunmüddətli inkişaf konsepsiyaları çərçivəsində resursların səmərəli yönləndirilməsinə imkan yaradır [9, s.1-38]. Çin qlobal hegemoniyasını "Bir kəmər, bir yol" təşəbbüsü, texnoloji ekspansiya, iqtisadi asılılıq münasibətləri və.s vasitəsilə genişləndirir. Bu model Çin Xalq Respublikası üçün həm iqtisadi cazibə yaradır, eləcədə ona beynəlxalq ticarətdə və regional geosiyasətdə artan təsir imkanı verir. Ölkənin siyasi hakimiyyəti sabitlik, iqtisadi davamlılıq, sosial nəzarət üzərində qurulan özünəməxsus legitimlik forması ilə əsaslandırılır [9, s.125-168].

Rusiya digər iki dövətdən fərqli olaraq siyasi hakimiyyətini mərkəzləşdirilmiş icra strukturlarına, təhlükəsizlik elitalarının roluna və güc konsepsiyasına əsaslanan idarəetmə modeli tətbiq edir. Başqa sözlə desək Kremlin hakimiyyət mexanizmi güclü prezident institutu, vertikal idarəetmə piramidası, strateji resursların dövlət nəzarətində cəmləşməsi əsasında qurulmuşdur [10, s.45-92]. Enerji resurslarının daha dəqiq desək qaz və neft kəmərlərinin geosiyasi alətə çevrilməsi rəsmi Moskvanın xarici siyasətinin əsas alətlərindən biridir. Federasiya hərbi gücə əsaslanan təsir mexanizmləri ilə regional təhlükəsizlik arxitekturasında öz mövqeyini qorumağa çalışır. Rusiya çoxqütblü dünya nizamını siyasi legitimliyinin ideoloji əsaslarından biri kimi təqdim edir [10, s.45-92]. Qeyd edək ki, Moskva digər iki gücdən fərqli olaraq beynəlxalq arenada normativ gücdən daha çox sərt güc vasitələrinə istinad edir.

*Üç modelin müqayisəli təhlili.* ABŞ legitimliyi demokratiya, hüquq mədəniyyəti, cəmiyyətin iştirak mexanizmləri üzərində yaradır [2, s.55-96]. ÇXR isə ABŞ-dən fəqli olaraq siyasi sabitlik, iqtisadi inkişaf və sosial nəzarət konsepsiyaları ilə idarəetməni əsaslandırır. Rusiyada milli güc, təhlükəsizlik ehtiyacları, dövlətçilik ideologiyasını legitimliyin əsasını təşkil edir. Buradan aydın görünür ki, hər üç dövlətin hakimiyyət strukturları müxtəlif tarixi təcrübələr və siyasi mədəniyyətlərin formalaşdırdığı modellərə əsaslanır.

Birləşmiş Ştatlarda hakimiyyətin bölgüsü yüksək institusional müstəvilərlə tənzimlənir ki, digər iki güc üçün bu belə deyil. Məsələn, Çin partiya-nəzarətli bürokratik aparat vasitəsilə kompleks idarəetmə şəbəkəsi yaradır [9, s.1-38]. Moskva isə güc vertikalının üstünlük təşkil etdiyi daha mərkəzləşdirilmiş siyasi sistem qurur. Birmənalı olaraq bu kimi fərqləri hər bir dövlətin qərar qəbul etmə sürətinə və siyasətin çevikliyinə ciddi təsir edir [10, s.45-92]. Daha dəqiq desək ABŞ-da proseslər nisbi konsensus tələb etdiyi üçün daha çox vaxt tələb edir. əksinə Çin və Rusiyada qərarlar mərkəzdən verildiyinə görə operativ yanaşma üstünlük qazanır.

Bu gün Amerika açıq bazar iqtisadiyyatı və innovasiya yönümlü iqtisadi model vasitəsilə qlobal maliyyə sistemində dominantdır [5, s.135-172]. Çin isə dövlətin ciddi nəzarətində olan və planlaşdırma ilə bazar elementlərini birləşdirən qarışıq iqtisadi model quraraq dünya ticarətində mərkəzi oyunçulardan biri olmağı bacarmışdır. Rusiya isə təbii resurslara arxalanan iqtisadi strukturla enerji bazarları üzərində təsir gücü formalaşdırır. Rusiya resurs yönümlü təsir strategiyası ilə daha məhdud coğrafi

məkanda fəaliyyət göstərdiyi halda, ABŞ və Çin iqtisadi güclərini qlobal şəbəkələr vasitəsilə yayaraq daha qlobal üstünlük əldə edir [1, s.3-41].

21-ci əsrdə Amerika bütün dünyanı əhatə edən hərbi alyans şəbəkəsi və yüksək texnoloji silah sistemləri ilə qlobal təhlükəsizlik sistemini yönləndirir [5, s.21-56]. Eyni zamanda ÇXR hərbi modernizasiya proqramı həmçinin dəniz gücünün genişləndirilməsi ilə regional üstünlükdən qlobal gücə doğru irəliləyir. Rusiya nüvə qüvvələrinə əsaslanaraq hərbi gücünü siyasi alət kimi istifadə edir. Bu üçlükdə ABŞ kollektiv təhlükəsizlik modeli qurur. Çin iqtisadi güclə dəstəklənmiş regional genişlənməni planlayır. Rusiya güc balansını saxlayan hərbi deterensiyaya söykənir. ABŞ beynəlxalq institutlar, hüquqi çərçivələr, mədəni təsir gücü ilə qlobal normalar formalaşdırır. Çin fərqli olaraq iqtisadi asılılıq əlaqələri, texnoloji ekspansiya, infrastruktur layihələri ilə qlobal təsirini günbəgün artırır. Moskva informasiya müharibəsi, hərbi hədəfə yönəlmiş siyasət, enerji siyasəti ilə təsir dairəsini artırır. Bu üç baxış müasir dünya nizamında həm rəqabət, həm də qarşılıqlı asılılıq şəraiti yaradır.

Hər üç dövlət müasir beynəlxalq sistemin əsas güc qütbləri kimi fərqli siyasi idarəetmə modelləri eləcədə strateji güc üsullarına malikdir. ABŞ liberal-demokratik institutlar, qlobal hegemonluq konstruksiyası ilə öz dəyərlərini universal normalar formasında təqdim edir. Çin Xalq Respublikası mərkəzləşdirilmiş siyasi hakimiyyəti dövlət kapitalizmi ilə birləşdirərək iqtisadi yüksəlişə əsaslanan təsir strategiyası yaradır. Rusiya fərqli olaraq güc mərkəzli idarəetmə, enerji resursları, hərbi deterensiya üzərində qurulan model vasitəsilə beynəlxalq mövqeyini qorumağa çalışır. Bu üç güc mərkəzinin müqayisəli təhlili göstərir ki, müasir dünya siyasəti ideoloji, iqtisadi və hərbi-strateji rəqabətin çoxqatlı dinamikası əsasında formalaşır. Bu da dinamika qlobal nizamın gələcək strukturuna həlledici təsir göstərir.

***Nəticə***. 21-ci əsrdə güc və hakimiyyət anlayışının transformasiyası beynəlxalq siyasi sistemin dərin struktur dəyişiklikləri ilə paralel irəliləyir. Bu dövlətlərin strateji davranışını yenidən müəyyənləşdirir. Müasir dövrdə gücün yalnız hərbi və iqtisadi göstəricilərlə ölçülməsi mümkünsüz hala gəlmişdir. Bu cür proses daha çox İT, diplomatik şəbəkələr, mədəni təsir və texnoloji liderlik kimi yeni komponentlərin inteqrasiyasını tələb etmişdir. Həmin çoxölçülü baxış dövlətlərin siyasi hakimiyyət mexanizmlərini daxili idarəetmə səviyyəsində eləcədə beynəlxalq sistemdə adaptiv, çevik və kompleks çərçivələrə yönləndirmişdir. Qloballaşma və qarşılıqlı asılılıq şəraitində sərt və yumşaq gücün kombinasiyası dövlətlərin effektivlik meyarına çevrilmişdir. Bu yanaşma müasir güc modellərinin nəzəri əsaslarını formalaşdırmışdır.

Bu ümumi transformasiya çərçivəsində Birləşmiş Ştatlar, ÇXR və Rusiya kimi qlobal güc mərkəzlərinin idarəetmə modelləri müasir güc konsepsiyalarının praktiki tətbiqini nümayiş etdirir. ABŞ liberal-demokratik institutlara və qlobal normativ təsirə arxalanaraq öz gücünü beynəlxalq təşkilatlar (BMT, BVF, NATO), təhlükəsizlik alyansları və qlobal maliyyə strukturları vasitəsilə proyeksiya edir. Çin Xalq Respublikası mərkəzləşdirilmiş siyasi nəzarəti dövlət kapitalizmi, texnoloji modernizasiya ilə birləşdirərək həm regional, həm də beynəlxalq səviyyədə iqtisadi şəbəkələr üzərindən təsirini genişləndirir. Moskva isə hərbi deterensiya, enerji diplomatiyası və mərkəzləşdirilmiş hakimiyyət modeli ilə strateji balans yaratmağa çalışır.

Yuxarıda qeyd olunan hər iki başlığın sintezindən aydın olur ki, gücün transformasiyası ilə qlobal güclərin tətbiq etdiyi siyasi modellər arasında çox sıx üzvi əlaqə mövcuddur. Müasir hakimiyyət strukturları artıq statik deyildir. Onlar dəyişən texnoloji, iqtisadi, geosiyasi proseslərə uyğun davamlı şəkildə yenilənməli olan dinamika tələb edir. Bu üzdən, gücün yenilənmiş nəzəri çərçivələri eləcədə Amerika Birləşmiş Ştatları, Çin Xalq Respublikası və Rusiya kimi aktorların tətbiq etdiyi strateji yanaşmalar qlobal siyasətin gələcək istiqamətini müəyyən edən əsas elementlərə çevrilir.

## ƏDƏBİYYAT

1. Allison, G. (2017). Destined for war: Can America and China escape Thucydides's trap? Houghton Mifflin Harcourt. 384 p.
2. Aydın, M. (2019). Uluslararası ilişkiler teorileri. Nobel Yayıncılık. 496 s.
3. Bilgin, P. (2015). Güvenlik çalışmalarına giriş. Küre Yayınları. 540 s.
4. Davutoğlu, A. (2012). Stratejik derinlik. Küre Yayınları. 600 s.
5. Ikenberry, G. J. (2011). Liberal leviathan. Princeton University Press. 392 p.
6. Kardaş, Ş., & Balcı, A. (2018). Uluslararası ilişkiler. Siyasal Kitabevi. 752 s.

7. Mearsheimer, J.J. (2014). The tragedy of Great Power politics. W.W. Norton. 592 p.
8. Nye, J.S. (2004). Soft power: The means to success in world politics. PublicAffairs. 191 p.
9. Shambaugh, D. (2013). China goes global: The partial power. Oxford University Press. 432 p.
10. Trenin, D. (2016). Should we fear Russia? Polity Press. 144 p.

**НАДИР МИРЗАЛИЗАДЕ**
*Бакинский государственный университет,*
*факультет международных отношений и экономики,*
*докторант по специальности «Политическая теория» кафедры Политологии и социологии*

## ТРАНСФОРМАЦИЯ ВЛАСТИ: СРАВНЕНИЕ ПОЛИТИЧЕСКОЙ ВЛАСТИ В КОНТЕКСТЕ США, КИТАЯ И РОССИИ

В данной статье, помимо анализа трансформации понятия власти и политической власти в современную эпоху, проводится сравнительный анализ моделей управления трех основных субъектов глобальной системы: Соединенных Штатов Америки, Китайской Народной Республики и России. Основная цель исследования - показать многомерный характер власти в XXI веке, определить, как изменились стратегии государств на фоне интеграции элементов жесткой и мягкой силы. В этом контексте ставится задача раскрыть теоретические и практические особенности моделей, применяемых тремя великими державами. Методологическая база основана на сравнительном анализе, системном подходе, нормативно-институциональном анализе и синтезе. В статье подчеркивается ограниченность классических концепций власти. Новые формы власти рассматриваются на фоне развития информационного общества, развития технологий, глобализации и возрастающей роли негосударственных субъектов.

В ходе исследования показано, что современные политические системы основаны как на адаптивных, так и на многомерных моделях власти. Соединенные Штаты создают международный нормативный эффект благодаря своему доминирующему положению в либерально-демократических институтах и международных организациях. Китайская Народная Республика продолжает свой подъем, реализуя экономико-экспансионистскую стратегию, основанную на системе централизованного управления, «государственного капитализма». Россия, в свою очередь, стремится сохранить свое региональное и глобальное влияние посредством военного сдерживания и энергетической дипломатии (газ, нефть). Сравнение показывает, что эти три модели представляют собой различные формы современной архитектуры власти. Таким образом, каждая из них создает важную аналитическую основу для понимания трансформации политических систем. В исследовании сделан вывод о том, что новые модели власти открывают широкие теоретические перспективы для будущих исследований и играют решающую роль в формировании мировой политики.

*Ключевые слова:* геополитическая конкуренция, мировой порядок, многомерная власть, сравнение США, Китая и России, глобальная политика, власть, авторитет.

**NADIR MIRZALIZADE**
*Baku State University, Faculty of International Relations and Economics,*
*PhD student in the specialty "Political theory" of the Department of Political Science and Sociology*

## TRANSFORMATION OF POWER: COMPARISON OF POLITICAL POWER IN THE CONTEXT OF THE USA, CHINA AND RUSSIA

This article, in addition to analyzing the transformation of the concept of power and political power in the modern era, provides a comparative analysis of the governance models of the three main actors of the global system, the United States of America, the People's Republic of China and Russia.

The main goal of the study is to show the multidimensional nature of power in the 21st century, to determine how the strategies of states have changed against the background of the integration of hard and soft power elements. In this context, it is to reveal the theoretical and practical features of the models applied by the three great powers. The methodological framework is based on comparative analysis, systematic approach, normative-institutional, analysis and synthesis. The article emphasizes the limitations of classical concepts of power. New forms of power are explained against the background of the rise of the information society, technological development, globalization and the increasing role of non-state actors.

In the course of the study, it is shown that modern political systems are based on adaptive as well as multidimensional power models. The United States creates an international normative effect with its dominant position in liberal-democratic institutions and international organizations. The People's Republic of China continues its rise with an economic-expansionist strategy based on a system called centralized governance, "state capitalism". Russia, on the other hand, is trying to maintain its regional and global influence through military deterrence, energy diplomacy (gas, oil). The comparison shows that these three models represent different forms of modern power architecture. Thus, each of them creates an important analytical basis for understanding the transformation of political systems.

The study concludes that new models of power open up broad theoretical perspectives for future research and play a crucial role in shaping global politics.

*Keywords:* Geopolitical competition, global order, multidimensional power, US-China-Russia comparison, global politics, power, authority.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 dekabr 2025-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.*
*Rəyçilər: s.ü.f.d. Xatirə Əfəndiyeva, s.e.d. Adil Mirabdullayev.*